**Gəminin mühafizəsi üzrə ümumi hazırlıq və təlimat**

1. SOLAS-74-ün XI-2 fəslinin neçə qaydası var?
   Düzgün cavab: 13 qayda

2. Mühafizənin neçə səviyyəsi mövcuddur?
   Düzgün cavab: 3

3. Gəmiyə gələn şəxslərin qarşılanması aşağıdakı qaydada yerinə yetirilir?
   Düzgün cavab: Gələn şəxsin sənədlərini yoxlamaq, kapitanın növbə köməkçisini məlumatlandırmaq və onun göstərişi əsasında fəaliyyəti davam etdirmək

4. Gəminin mühafizə səviyyəsi limanın mühafizə səviyyəsindən yüksək ola bilərmi?
   Düzgün cavab: yüksək ola bilər

5. Mühafizə səviyyəsi 1 – adi səviyyə dedikdə nə nəzərdə tutulur?
   Düzgün cavab: riskin minimal səviyyəsidir

6. Gəmilərdə mühafizə səviyyələrini hansı təşkilat təyin edir?
   Düzgün cavab: gəminin məxsus olduğu dövlətin dəniz Administrasiyası

7. Gəminin mühafizə planı hansı təşkilat tərəfindən bəyənilir?
   Düzgün cavab: gəmi bayrağının dəniz Administrasiyası tərəfindən

8. Gəminin mühafizəyə məsul şəxsi kim tərəfindən təyin olunur?
   Düzgün cavab: şirkət tərəfindən

9. Gəmiyə pirat basqını zamanı hansı fəaliyyətlər görülməlidir?
   Düzgün cavab: GMXS (SSAS) sistemini işə salmaq, ümumgəmi həyəcan siqnalı vermək və təyin olunmuş yerdə kömək gələnə qədər gizlənmək

10. Gəmiyə daxil olmaq istəyən şəxs nə etməlidir?
    Düzgün cavab: əl çantasını (varsa) yoxlanılması üçün növbətçi matrosu təqdim etməlidir

11. Aşağıda göstərilən hansı ərazi suları pirat basqını zonaları hesab olunur?
    Düzgün cavab: İndoneziya, Filippin, Somali

12. Gəmidə mühafizə üzrə məşqlər neçə müddətdən bir keçirilməlidir?
    Düzgün cavab: 3 ayda azı 1 dəfə

13. Gəminin mühafizə planı harada saxlanılır?
    Düzgün cavab: Kapitanın seyfində

14. Gəminin mühafizəsi üzrə təlimlər neçə müddətdən bir keçirilməlidir?
    Düzgün cavab: 12 ayda ən azı bir dəfə

15. Gəmidə aparılan baxış nə vaxt dayandırılmalıdır?
    Düzgün cavab: Gəmi tam yoxlanıldıqdan sonra baxış dayandırılır

16. Gəminin mühafizəsi haqqında beynəlxalq şəhadətnamə neçə müddətə verilir?
    Düzgün cavab: 5 il

17. Gəmidə narkotik maddə aşkarlanarsa hansı fəaliyyət görülməlidir?
    Düzgün cavab: Narkotik maddəyə toxunmamaq və dərhal kapitanın növbə köməkçisini məlumatlandırmaq

18. Gəmiyə keçirilən baxış zamanı baxış qrupu neçə nəfər heyət üzvündən ibarət olmalıdır?
    Düzgün cavab: Baxış qrupunda 2, 3 nəfər heyət üzvləri olmalıdır

19. Gəmiyə zəng vurub təhdid edən şəxslə telefonda necə danışmaq tövsiyə olunur?

Düzgün cavab: Zəng vuran şəxslə söhbəti maksimum uzatmaq və təmkinli danışmaq

20. Məhdudlaşdırılmış giriş sahələri haqqında gəminin hansı sənədində geniş şərh olunur ?

Düzgün cavab: Gəminin mühafizə planında

21. Aşağıda göstərilənlərdən hansılar şübhəli şəxslər kateqoriyasına aiddir?

Düzgün cavab: Yoxlama zamanı aqressiya nümayiş etdirən şəxslər

22. Aşağıda göstərilənlərdən hansı məxfi məlumatdır?

Düzgün cavab: Gəminin mühafizə planı

23. Dəniz quldurları adətən hansı silahlarla silahlanır?

Düzgün cavab: Avtomat, RPQ-7, soyuq silahlar

24. Növbə matrosu hansı jurnalda qeydlər aparmalıdır?

Düzgün cavab: Gələnlərin qeydiyyatı jurnalında

25. Mühafizə səviyyəsi 2 dedikdə hansı səviyyə nəzərdə tutulur?

Düzgün cavab: Yüksəldilmiş səviyyə

26. Gəmi mühafizə xəbərdaretmə sisteminin funksiyası nədir?
Düzgün cavab: Mühafizənin pozulması haqqında sahili xəbərdaretmə

27. Mühafizə səviyyəsi 3 dedikdə hansı səviyyə nəzərdə tutulur?
Düzgün cavab: Müstəsna səviyyə

28. Gəmi heyətinin mühafizə üzrə təlimatlandırılmasını kim təmin edir?
Düzgün cavab: Gəminin mühafizəyə məsul şəxsi

29. Gəmidə xüsusi mühafizə tədbirlərinin görülməsi hansı mühafizə səviyyəsinə aiddir?
Düzgün cavab: Müstəsna səviyyəyə

30. Gəmidə kənar şəxs görən heyər üzvü nə etməlidir?
Düzgün cavab: Dərhal gəminin mühafizəyə məsul şəxsini məlumatlandırmaq

31. Aşağıda göstərilənlərdən hansı məxfi məlumatdır?
Düzgün cavab: Gəminin GMXS (SSAS) sisteminin işə salınma proseduru

32. Müşayət olunmayan baqaj dedikdə nə nəzərdə tutulur?
Düzgün cavab: Müşayət olunmayan baqaj, yoxlama və ya baxış keçirilən yerdə müvafiq sərnişin və ya heyət üzvü ilə birgə olmur

33. Gəmilərin və liman vasitələrinin mühafizəsi üzrə beynəlxalq məcəllənin tələblərinə müvafiq olaraq hansı yoxlama növləri mövcuddur?
Düzgün cavab: ilkin, aralıq, əlavə, təzələmə

34. Gəmi mühafizə xəbərdaretmə sisteminin ən azı neçə düyməsi gəmidə quraşdırılmalıdır?
Düzgün cavab: 2

35. Gəmi mühafizə xəbərdaretmə sisteminin düymələri gəmidə hansı bölmələrdə quraşdırılmalıdır?
Düzgün cavab: 1-ci düymə kapitan körpüsündə, 2-ci düymə isə mühafizə planında göstərilən yerdə

36. Gəmi mühafizə xəbərdaretmə sisteminin işə salınması qərarını gəmidə kim verir?
Düzgün cavab: Kapitan və ya gəminin mühafizəyə məsul şəxsi

37. Gəminin mühafizəsinə dair qeydlər aşağıdakı dillərdən hansında aparılmalıdır?

Düzgün cavab: İngilis, ispan, fransız dillərindən birinə tərcümə olunmaqla gəminin işçi dilində

38. Limanda mühafizənin və təhlükəsizliyin təmini üzrə tədbirlərin tətbiqini özündə qeyd edən sənəd necə adlanır?

Düzgün cavab: Liman vasitələrinin mühafizə planı

39. Hüquq mühafizə orqanının nümayəndəsi gəmidə olarkən GMMŞ ondan silahının təhvil verilməni tələb edə bilərmi?

Düzgün cavab: Xeyr

40. Statistikaya görə cənub-şərqi Asiyada ən çox pirat təhlükəlisinin olduğu rayonlar hansılardır?

Düzgün cavab: Malakka boğazı və İndoneziya

41. Hansı əşyalar stasionar metal detektorla müəyyən edilir?

Düzgün cavab: Soyuq silahlar

42. Gəminin mühafizə planının elektron şəkildə saxlanılmasına icazə verilirmi?

Düzgün cavab: Bəli

43. Gəmiyə girişə nəzarət edən növbə matrosunun mühafizə üzrə vəzifəsi aşağıdakılardan hansıdır?

Düzgün cavab: Gələn şəxs barədə kapitanın növbə köməkçisini məlumatlandırmaq

44. Gəmidə mühafizə üzrə daxili yoxlamanı hansı təşkilat keçirir?

Düzgün cavab: Gəminin məxsus olduğu şirkətin nümayəndələri

45. Qəsbkarlar gəmiyə çıxdığı təqdirdə, heyətin təhlükəsiz sahələrə yerləşdirilməsini kim təmin etməlidir?

Düzgün cavab: Gəminin kapitanı